# Hərb tariximizin zəfər salnaməsi




***Ermənistan Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün 1988-ci ildə başladığı, 1992-ci ildə isə miqyasını daha da genişləndirdiyi etnik təmizləmə siyasəti və işğalçılıq savaşı nəticəsində ərazimizin 20 faizini qəsb etdi. Düşmən Qərbi Azərbaycandan və Qarabağ bölgəsindən 1 milyondan çox soydaşımızı qovdu, azərbaycanlılara qarşı milli nifrət və düşmənçilikdən qaynaqlanan ağır cinayət aktları həyata keçirdi, XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımını, habelə bir sıra digər qətliam əməllərini törətdi.***

Ermənistanla Azərbaycan arasındakı cəbhə xəttində 1994-cü ilin mayında münaqişənin sülh yolu ilə həllinə şərait yaratmaq məqsədi ilə atəşkəs elan olunduqdan sonra da düşmən ölkə rəhbərliyi öz mənfur niyyətindən əl çəkmədi, yenidən bütün fəaliyyətini işğalın nəticələrini möhkəmləndirməyə yönəltdi. Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli, eləcə də BMT Baş Məclisinin 62/243 nömrəli, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, habelə digər beynəlxalq qurumların müxtəlif illərdə qəbul etdikləri qətnamələrə etinasızlıq göstərdi.

Ermənistan münaqişənin nizama salınması üçün yaradılan ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlardan Azərbaycan torpaqlarının işğalının nəticələrini bu və ya digər şəkildə rəsmiləşdirmək, bu mümkün olmadıqda isə vaxt uzatmaq üçün yararlanmağa çalışdı.

**(ardı 5-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

# Hərb tariximizin zəfər salnaməsi

İşğalçı törətdiyi əməllərə görə cəzasız qalmasından istifadə edərək, sülh prosesini birdəfəlik pozmaq qərarına gəldi. Bu məqsədlə 2016-cı ilin aprel, 2020-ci ilin isə iyul və avqust aylarında Azərbaycan Silahlı Qüvvələrinə qarşı təxribatlar törətdi. Buna cavab olaraq Azərbaycanın həyata keçirdiyi tədbirlər Ermənistan silahlı qüvvələrinin canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilər verməsinə gətirib çıxardı.

O zaman Ermənistan rəhbərliyinin verdiyi bəyanatlardan və davranışlarından işğal altında olan əraziləri qaytarmaq və ədalətli sülh əldə etmək istəmədiyi açıq-aşkar göründü. Bu, bir yana, düşmən Azərbaycanın yeni ərazilərini ələ keçirmək niyyətini də gizlətmədi. İşğal altındakı torpaqlarda qanunsuz məskunlaşdırma siyasətini genişləndirməyə, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərdi. Ermənistan müdafiə nazirinin “yeni ərazilər üçün yeni müharibə” iddialarını səsləndirməsi, habelə digər bəyanatlar və hərəkətlər də işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini üzə çıxardı.

Azərbaycan isə bu dövrdə bəyan edirdi ki, öz ərazisinin bir hissəsində suverenliyinin qəsbinə, torpaqlarının quldurcasına zəbtinə və qoparılmasına heç zaman razı olmayacaq və bütün imkanlardan istifadə edərək ərazi bütövlüyünün bərpasını gerçəkləşdirəcək.

Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan yararlanaraq, təcavüzkarı sülhə məcbur etmək, torpaqlarımızın işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başladı.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün çəkən Vətən müharibəsində heyrətamiz qələbələr əldə edərək, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı.

Düşmən ordusuna ağır zərbələr endirildi, onun çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edildi. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən 300-ə yaxın yaşayış məntəqəsi azad olundu. İkinci Qarabağ müharibəsinin ən şərəfli səhifələrindən biri isə ötən il noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün oldu.

Beləliklə, Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilmədiyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyəti etiraf etdi. Azərbaycan Ordusunun qazandığı hərbi zəfər siyasi müstəvidə nail olunan qələbə ilə tamamlandı. Bununla da 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla 30 ildən artıq davam edən münaqişəyə son qoyuldu.

Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatları hazırda dünyanın ən güclü orduları sırasında qərarlaşan, ən müasir silahlarla, hərbi texnika və müdafiə təyinatlı qurğularla tam təchiz edilən ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu aydın şəkildə göstərdi.

Dövlətimizin başçısı hələ döyüşlərin qızğın vaxtında Azərbaycan Ordusunun gücqüdrətinin belə yüksək səviyyəyə çatmasının təsadüfi olmadığını xüsusi vurğulayaraq deyib: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir...”.

Vətən müharibəsindəki möhtəşəm qələbə ilə erməni şovinistlərinin Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdikləri etnik təmizləmə, işğalçılıq və ekspansionizm siyasətinin qarşısının alınması ilə bağlı tarixi missiya uğurla yerinə yetirildi və tarixi ədalət bərpa olundu. Zəfər Günü kimi tarixə qızıl hərflərlə yazılan ötən ilin 8 noyabrı müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji



hazırlığının və peşəkarlığının təntənəsinə çevrildi.

Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtardı və onu qalib, yenilməz xalq kimi bütün dünyaya tanıtdı. Qüdrətli Azərbaycan yerləşdiyi bölgənin siyasi, iqtisadi, hərbi, humanitar mənzərəsini dəyişməyə qadir olduğunu, bundan sonra heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə nümayiş etdirdi.

Qüdrətli və qalib Azərbaycanın hər bir vətəndaşı artıq qürur və sevinc hissi ilə yaşayır. Otuz il ərzində 20 faiz ərazisi tapdaq altında olan bir ölkənin övladı indi başını dik tutur, çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin bu ən şanlı qələbəsinin şahidi olduğu üçün özünü dünyanın ən bəxtəvəri sanır, bu xoşbəxtliyi ona bəxş edən Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevə sonsuz minnətdarlığını bildirir və Azərbaycanın daha da çiçəklənməsi yolunda inamlı addımlar atır.

Dövlətimizin başçısı ölkədə iqtisadi islahatların sürətləndirilməsi ilə yanaşı, işğaldan azad olunan ərazilərimizə böyük qayıdışın ən yüksək səviyyədə təmin edilməsi üçün bütün dünyanı heyrətə gətirən layihələr reallaşdırır. Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” fərmandakı yeni bölgüyə 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da adlarının salınması, Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm addımlar atılması da düşməndən təmizlənən torpaqların tezliklə yeni görkəm alacağından xəbər verir.

Artıq bir ildir ki, Qarabağ və Şərqi Zəngəzurda işğalçının dağıtdığı, xaraba qoyduğu yaşayış sahələrində genişmiqyaslı bərpa-quruculuq işləri gedir, bütün torpaqlarda həyat bərpa olunur.

Hazırda bu ərazilərdə infrastrukturun yaradılması, vaxtilə mövcud olmuş magistralların yenidən qurulması və yeni yolların çəkilməsi mühüm önəm daşıyır. Çünki bu sahənin inkişafı şəhər və kəndlərin salınmasını, məskunlaşmanın gerçəkləşdirilməsini şərtləndirir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2021.-21 noyabr.- S.1;5.